# Gənclərə örnək həkimlərimiz

**Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində Zəfər yürüşü ilə dünya hərb tarixinə parlaq səhifələr yazdı. 44 günlük ölüm-dirim savaşında yurdumuzun mərd, igid oğulları özlərini qızğın döyüşlərə ataraq vətəni müdafiəyə qalxdılar, son damla qanlarına qədər vuruşdular. Ölümə meydan oxuyan cəsur oğullardan biri də ehtiyatda olan tibb xidməti baş leytenantı Orxan Eminov oldu.**

Orxan Goranboy rayonunun Qızılhacılı kəndində dünyaya göz açmışdı. O, vətənin hər qarışını canından artıq sevirdi. Azərbaycanın hərb tarixini həvəslə öyrənir, İkinci Dünya müharibəsi veteranlarının cəbhə xatirələrini maraqla dinləyir, "Uzaq sahillərdə" filminin əfsanəvi qəhrəmanı Mehdi Hüseynzadənin almanlara qarşı igidliklə vuruşduğuna həsəd aparırdı.

Orxan Eminov orta məktəbi müvəffəq qiymətlərlə başa vurduqdan sonra sənədlərini Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinə verdi. Arzusuna qovuşdu, ali məktəbə daxil oldu.

O, qürur hissi keçirirdi ki, Birinci Qarabağ savaşında Goranboy batalyonu erməni separatçılarına qarşı ağır zərbələr endirdi, keçmiş Şaumyankənd ərazisi Goranboyun Koroğlu qeyrətli, cəsur oğullarının rəşadətli döyüş yolu nəticəsində erməni vandallarından azad olundu. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Goranboy batalyonunun 7 şahin qorxmaz hərbçisi "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü, onların adı Azərbaycanın



müharibə tarixinə qızıl hərflərlə yazıldı...

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı leytenant Orxan Eminov ali təhsilli tibb işçisi kimi cəbhə bölgələrinə, odlu səngərlərə yollandı. Evdən ayrılarkən anası Məhməzərə və atası Salehə dedi ki, döyüşlərdə yaralananlara kömək etmək mənim müqəddəs borcumdur...

Orxan 44 günlük Vətən müharibəsində ən ağır döyüşlərdə yaralı əsgərlərimizin yanında oldu, çoxlarını ölümün pəncəsindən qurtarıb həyata qaytardı. Füzuli, Qubadlı, Daşaltı və Şuşada gedən ağır döyüşlərdə yaralanan neçə-neçə döyüşçümüzə yardım əli uzatdı, onların yarasına məlhəm qoydu. Bir sözlə, vətənin dar günündə bütün yaralıların qardaşı, sirdaşı oldu, heç vaxt ağ xalatı əynindən çıxmadı. Zəfər günündə isə dünyalar qədər sevindi, ona görə ki, bu parlaq qələbədə tibb işçilərinin də böyük əməyi var.

Ehtiyatda olan tibb xidməti baş leytenantı Orxan Eminov Vətən müharibəsindəki xidmətlərinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Qubadlının işğaldan azad olunmasına görə" medalları ilə təltif olunub.

Orxan Eminov hazırda "Murov Naftalan" sanatoriyasında həkim-dermatoloq" vəzifəsində çalışır.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2024.- 29 sentyabr (№ 213).- S.7.